Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Musiqimizin ilk fədailərindən biri – Asəf Zeynallı

**Asəf Zeynallının anadan olmasının 110 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı-2019**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Musiqimizin ilk fədailərindən biri – Asəf Zeynallı:** Asəf Zeynallının anadan olmasının 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; S. Əhmədova, ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. – 18 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Azərbaycan musiqi mədəniyyətinin bugünkü yüksək inkişaf mədəniyyətinə çatmasında istedadlı bəstəkar Asəf Zeynallının xüsusi xidmətləri vardır. O, yazdığı uşaq suitası, topladığı Azərbaycan xalq musiqi nümunələri ilə gələcək nəslə böyük bir irs qoyub getmişdir. Onun bu irsini, mədəniyyətimizdə olan bu xidmətlərini tanıtmaq kitabxana olaraq öhdəmizə düşən vəzifələrdən hesab olunur.

Bəstəkarın yubileyi ilə əlaqədar hazırlanmış bu metodik vəsait *"Musiqimizin ilk fədailərindən biri" və "Keçiriləcək tədbirlər"* adlı hissələrdən ibarətdir. *"Musiqimizin ilk fədailərindən biri"* hissəsində bəstəkarın həyat və yaradıcılıq fəaliyyətindən bəhs edilir. *"Keçiriləcək tədbirlər adlı"* ikinci hissədə isə kitabxanada yubileylə bağlı keçiriləcək tədbirlərdən söhbət açılır.

## Musiqimizin ilk fədailərindən biri Asəf Zeynallı

Azərbaycan musiqisinin bugünkü inkişaf səviyyəsinə çatmasında bu il 110 illik yubileyi qeyd edilən bəstəkarımız Asəf Zeynallının da öz xidmətləri olmuşdur. O, kamera-instrumental musiqi, romans və simfonik janrlarda ilk əsərlər yaradan müəlliflərdən biri olaraq, keçmiş Sovet hakimiyyəti Azərbaycanda qurulduqdan sonra peşəkar musiqi təhsili almış ilk bəstəkarlardan biri sayılır. 1909-cu il aprelin 5-də anadan olmuş bəstəkar kiçik yaşlarından mahnı və rəqslərə böyük maraq göstərmiş və 1923-cü ildə yeni açılmış Azərbaycan Dövlət musiqi məktəbinin truba sinfinə daxil olmuşdur. Lakin bəstəkarlığa meyl göstərdiyindən öz kiçik əsərlərini yazmağa təhsil aldığı illərdən başlamışdır. Elə həmin il Bakıda fəhlə klubunda Azərbaycan Dövlət musiqi məktəbinin şagirdlərinin konsertində "Rast" muğamı əsasında bəstələdiyi "Truba üçün pyesi" əsəri böyük dinləyici marağı ilə qarşılaşmışdır. Bunu görən Üzeyir Hacıbəyov musiqi məktəbində oxuyan Asəfin musiqi yaradıcılığı ilə yaxından maraqlanıb, ona göstərişlər vermişdir. Bir müddət sonra bəstəkar məktəbin violençel sinfinə keçib və iki il sonra məktəbin orkestrində violençeçalanlar qrupunda konsertmeyster təyin olunmuşdur. 1926-cı ildə isə o Azərbaycan Dövlət Konservatoriyasına daxil olub və burada Üzeyir Hacıbəyovun rəhbərliyi ilə Azərbaycan xalq musiqisinin əsaslarını dərindən öyrənmişdir.

1929-1931-ci illərdə türk fəhlə teatrında musiqi bölməsinin müdiri və Azərbaycan proletar musiqiçiləri birliyinin sədri işləmiş bəstəkarın bir müddət sonra, Tofiq Quliyev və Qara Qarayev kimi tanınmış tələbələri olmuşdur. 23 il ömür sürməsinə baxmayaraq fəaliyyəti ilə o, milli musiqi sənətində silinməz izlər qoyur. Yazdığı "Ölkəm", "Sərhədçi", "Çadra", "Sual", "Seyran" romanslarının milli vokal musiqimizin inciləri hesab etmək olar. Piano üçün "Uşaq süitası" silsiləsi,

“Çahargah” pyesi, violino və piano üçün “Muğamsayağı”, 2 fuqa, simfonik orkestr üçün “Fraqmentlər”, teatr tamaşalarına musiqi, xalq mahnıları işləmələri Azərbaycan musiqi folklorunun toplanıb nota köçürülməsi və işlənməsi sahəsində böyük işlər aparmışdır. Tərtib etdiyi “İbtidai not savadı” adlı dərsliyi, "Uşaq süitası" əsəri ilə ilk dəfə Azərbaycan musiqi tarixində uşaq musiqisi repertuarının əsasını qoymuşdur. 70-ə yaxın Azərbaycan xalq mahnılarını nota almışdır. Bu işləri görən Asəf Zeynallı Azərbaycan musiqi folkloru nümunələrinin toplanması üçün Qarabağa səfər edərkən orada ağır xəstələnir. Qarın yatalağına tutulan bəstəkar müalicə almaq üçün Bakıya qayıdır. O, xəstəxanada olarkən otağının divarına son simfoniyasını yazır və qardaşından əsərinin divardan kağıza köçürülməsini xahiş edir. Təəssüf ki, onun son vəsiyyətini heç kim yerinə yetirmir… Beləcə, Asəf Zeynallı 27 oktyabr 1932-ci ildə yaradıcılığının inkişaf etdiyi bir dövrdə, bu ağır xəstəlikdən vəfat edir. Xatirəsinə əziz olaraq paytaxtda yerləşən Bakı musiqi kolleci və paytaxt küçələrindən biri bəstəkarın adını daşıyır.

## Yarımçıq qalmış ömür

Ailədə üçüncü övlad və sonbeşik olan Asəf atasını hələ bir yaşı olanda itirir. Ailənin bütün ağırlığı bundan sonra üzərinə düşdüyündən, onlara çox vaxt ayıra bilməyən anası işdən yorğun qayıdanda, uşaqlarını başına yığıb onlara qarmon çalardı. Bu da musiqinin Asəfin həyatına və ürəyinə daxil olmasına gətirib çıxarır.

7 yaşı olanda Dərbənd realnı məktəbinə təhsil almağa gedən Asəf, burda uşaq xorunda oxumağa başlayır, klarnet çalmağı öyrənir. 11 yaşı olanda ailəsi Bakıya köçən Asəf, əvvəlcə hərbi məktəbin nəzdində nəfəsli orkestrdə truba çalmağı öyrənir, sonra Bakı Musiqi Texnikumunun truba, violonçel, fortepiano

siniflərində təhsil alır. “Truba üçün pyes”ini 14 yaşında texnikumda özü ifa edir. O vaxtadək trubanı hərbi marş aləti hesab edənlər Asəfin “Rast” muğamı əsasında bəstələdiyi pyesdən vəcdə gəlirlər.

Dövrünə görə Asəf Zeynallı Azərbaycan Dövlət Konservatoriyasında professional bəstəkarlıq təhsili almış ilk bəstəkar hesab edilir. Konservatoriyada oxuyarkən Üzeyir Hacıbəylinin məşğələlərini hər dəfə böyük səbirsizliklə gözləyən Asəf Zeynallının yaradıcılığında dahi bəstəkarın böyük rolu olur. Xalq musiqisinin əsaslarını Üzeyir bəydən öyrənən Asəf Zeynallı sonralar Azərbaycanın ən uzaq guşələrinə gedərək xalq mahnılarını toplayıb, nota köçürür.

Gənc bəstəkar konservatoriyada Qərbi Avropa və rus klassik musiqisi dərnəyini yaradır. Orada onun məruzələri maraqla dinlənilir. Asəf Zeynallı Səid Rüstəmov, Əşrəf Həsənov və Fuad Əfəndiyevlə birgə “İbtidai not savadı” dərsliyini tərtib edib.

İlk milli romansların, fortepiano və skripka üçün miniatür pyeslərin, ilk simfonik nümunələrin müəllifi kimi Azərbaycan musiqi mədəniyyəti tarixinə daxil olub. Avropa musiqisinin nəzəri əsaslarını dərindən mənimsəyən bəstəkar onları xalq musiqisi ilə sintez edərək orijinal əsərlər yaradıb.

İstedadlı bəstəkar “Sarı gəlin”, “Səndən mənə yar olmaz”, “O qara qaşlar” və digər xalq mahnıları üzərində işləyib, çoxlu sayda xalq mahnılarını nota salıb. Onun “Lay-lay”, “Günlər” pyesi, “Çahargah”, “Durna”, “Muğamsayağı” əsərləri kamera musiqisi üçün yeni üfüqlər açıb. Gənc bəstəkarın “Fraqmentlər” süitası Azərbaycan musiqisində ilk simfonik əsərdir. “Bakı” simfoniyasının ərsəyə gəlməsinə isə vaxtsız ölüm mane olub.

Xalq mahnılarını toplamaq üçün Qarabağ ekspedisiyasında iştirak edən Asəf Zeynallı Şuşada Xan Şuşinski ilə tanış olur, onun oxuduğu “Alma almaya bənzər” mahnısını çox bəyənir.

## İllərin sınağından şərəflə çıxmış sənət

Öz xidmətləri ilə adlarını musiqi sənəti tariximizə əbədi həkk etmiş sənətkarlardan söz düşəndə birincilər sırasında Asəf Zeynallının da adı hörmətlə çəkilir. Asəf Zeynallı çox qısa bir ömür yaşayıb – cəmi 23 il. Lakin parlaq istedadı, musiqi sənətinə sonsuz məhəbbəti, güclü həyat və yaradıcılıq enerjisi sayəsində 23 illik ömrü və 7 illik yaradıcılığı ərzində başqalarının on illərlə görə bilmədiyi işləri görmüş, özündən sonra qərinələrin sınağından şərəflə çıxan, həmişə gənclik təravətini və sənət dəyərini saxlayan qiymətli bir irs qoyub getmişdir.

Asəf Zeynallı öz yaradıcılığında Qərb musiqisinin formalarını və janrlarını Azərbaycan xalq musiqisinin ifadə vasitələri ilə əlaqələndirmiş, onların uğurlu sintezinə nail olmuş, beləliklə, Üzeyir Hacıbəyov və Müslüm Maqomayev ilə birlikdə Azərbaycan milli bəstəkarlıq üslubunun təməlini qoymuşdur. Məhz bu baxımdan dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyov Asəf Zeynallının yaradıcılığını yüksək qiymətləndirərək onun gələcəkdə daha böyük sənət nailiyyətləri qazana biləcəyini vurğulamışdır: “Asəfin əsərlərinə nəzər saldıqda aydın olur ki, gələcəkdə, o, olduqca böyük, orijinal və dərin düşüncəli bir bəstəkar ola bilərdi”.

Bu il görkəmli bəstəkarın anadan olmasının 110 illiyi tamam olur. Bu münasibətlə doğma respublikamızda, doğulub boya-başa çatdığı qədim Dərbənddə, eləcə də Rusiyanın bir çox şəhərlərində yubiley tədbirləri keçirilir. Belə tədbirlərdən biri də bu günlərdə Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecində keçirildi.

Tədbirə dəvətli qonaqlar sırasında respublikanın tanınmış incəsənət xadimləri, görkəmli musiqiçilər, Asəf Zeynallının anadan olduğu qədim Dərbənd şəhərindən gəlmiş qonaqlar, Dərbənd Şəhər Mədəniyyət İdarəsinin rəisi Hüseynbala

Hüseynov, Təhsil Nazirliyi iqtisadiyyat şöbəsinin müdiri, Azərbaycan – Dərbənd Cəmiyyətinin sədri Həmid Zeynalov, Vasif Zeynalov, "EVTERPA" bələdiyyə incəsənət qrupunun solistləri, müğənni Batul Nağıyeva, skripkaçı Mədinə Abdullayeva, konsertmeyster Səidə Axundova və Asəf Zeynallının qardaşı qızı, kollecin təcrübəli müəllimi Elmira Zeynallı və rəsmi şəxslər var idilər.

Tədbiri giriş sözüylə açan kollecin direktoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov qonaqları salamlayaraq Asəf Zeynallının həyat və yaradıcılığına həsr olunmuş elmi-konfransda onun Azərbacan incəsənətinə bəxş etdiyi bir-birindən gözəl musiqi əsərlərindən, eləcə də yubilyarın ad gününə "Elm və Təhsil" nəşriyyatı tərəfindən nəfis şəkildə çap olunmuş "Asəf Zeynallı" kitabından söz açdı.

Nazim Kazımovun bu kitabına çox böyük önəm verən Milli Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı, "İstiqlal ordenli" professor Arif Məlikov Asəf Zeynallının bu qısa ömürdə Azərbaycan professional musiqi sənətinin inkişafına bəxş etdiyi və ecazkar əsərləri ilə əbədi olaraq musiqi tariximizə düşdüyünü xüsusi qeyd etməklə yanaşı, Asəf Zeynallı haqqında indiyə qədər lazımi qədər tədqiqatlar aparılmadığını, eləcə də bu unikal kitabın "Azərbaycan musiqi tarixi", XX əsr Azərbaycan Musiqi Ədəbiyyatı fənləri üzrə müəllim və tələbələrə layiqli töhfə olduğunu qeyd etdi. "Tar ilə fortepiano üçün pyeslər", "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri", Səid Rüstəmov, "Musiqi Kolleci – 110, eləcə də onlarla digər elmi-metodik, publisist məqalələr müəllifi kimi tanınan Nazim Kazımov həmin gün yubilyarın 110 illiyinə həsr olunmuş müsabiqə qaliblərinə fəxri fərman, diplomlarla yanaşı "Asəf Zeynallı" kitabını da təqdim etdi.

## Görkəmli şəxsiyyətlər Asəf Zaynallı haqqında

Öz yaradıcılığında yeni musiqi üslubunun sağlam ünsürlərini təbliğ edən Asəf, Sovet Azərbaycanın inqilabi əhvali-ruhiyyəli ilk gənc musiqiçisi idi.

**Üzeyir Hacıbəyov,**
*SSRİ Xalq artist*

Asəf çox tez getdi. İyirmi üç yaşında. Mən həmişə onun ömrünü gözəl bir müsiqi əsərinə, mahnıya, romansa bənzədirəm. Lakin o əsər bitməyib, yarımçıq qalıb.

**Səid Rüstəmov,**
*SSRİ Xalq artist*

Qönçə ikən solan bu gülün xalqa bəxş etdiyi musiqi həmişə cavan, həmişə təzə tərdir. Buna görə də Asəf Zeynallı öz qısa ömrü içərisində yazdığı kiçik formalı bir neçə əsəri ilə musiqi ədəbiyyatımızda bir klassik kimi daim yaşayacaqdır.

**Əfrasiyab Bədəlbəyli,**
*Azərbaycanın Xalq artisti*

Azərbaycan xalq musiqisini dərindən bilməyi, melodiyalarının təravətliliyi, maraqlı harmonik dili Asəf Zeynallı yaradıcılığının milli özünəməxsusluğunu müəyyən etmişdir.

**Qara Qarayev,**
*SSRİ Xalq artist*

## Keçiriləcək tədbirlər

Azərbaycan musiqi folklorunun toplanmasında böyük xidmətləri olan Asəf Zeynallının işlərini oxucuları ilə bölüşmək kitabxananın üzərinə düşən vəzifələrdən biridir. Bütün ömrü boyu milli mədəniyyətimizə xidmət edən və elə bu yolda da gənc ikən dünyasını dəyişən bəstəkarın fəaliyyətindən bəhs edən konfrans, haqqında kitab sərgisi, bəstəkarın 110 illiyinə həsr edilmiş anım günü çərçivəsində musiqi saatı, xatirə gecəsi hazırlaya bilərik. Artıq bir neçə ildir elektron bazası yaradılan kitabxananın saytında (clb.az) burada keçirilən tədbirlər, vəsaitləri əldə edə bilərik.

**Konfrans.** Konfransda kitabxananın direktoru və qonaqlar iştirak edir. Tədbiri giriş sözü ilə kitabxananın direktoru açır.

Ötən əsrin 20-ci illərin sonları, 30-cu illərin əvvəllərində fitri istedadı ilə diqqəti cəlb etmiş Asəf Zeynallı öz əsərləri ilə musiqimizin və milli bəstəkarlıq məktəbimizin inkişafına böyük təkan vermişdir. O, Azərbaycan ali professional musiqi təhsili olan ilk bəstəkar sayılır. İlk Azərbaycan bəstəkarlarının yaradıcılığını, rus və Avropa klassik musiqi üslubunu dərindən mənimsəyən, öz potensial imkanlarından istifadə edərək Azərbaycan musiqisini daha da zənginləşdirən bəstəkar, musiqi haqqında yazdığı məqalələri ilə o dövr ictimai həyatında baş verən hadisələrə də münasibət bildirmişdir.

Kitabxana olaraq burada vətənpərvərlik tədbirlərinin təbliğinə daha çox yer ayrılır. Bu tədbirlərdə istifadə etmək üçün bəstəkarın “Ölkəm” romansı və vətənpərvərlik romansı olan “Çadra” lirik əhvali-ruhiyyəli monoloqundan istifadə etmək məqsədəuyğundur.

*Mahnı müsabiqəsi.* Yubilyarın yaradıcılığına həsr edilmiş müsabiqələrin keçirilməsinin kitabxanada böyük əhəmiyyəti vardır. Müxtəlif tipli belə müsabiqələr yeniyetmələrin zövqünü formalaşdırır, onların dünyagörüşünün yaxşılaşmasında böyük

rol oynayır. Kitabxanada bəstəkarın yaradıcılığına həsr edilmiş mahnı müsabiqəsi təşkil edə bilərik. Bu müsabiqədə bəstəkarın musiqi əsərləri – fortepiano, skripka, kanon və b. musiqi alətlərində ifa edilir, topladığı xalq mahnıları, müəllif sözlərinə bəstələdiyi mahnılar dinlənilir.

**Tamaşalara bəstələdiyi mahnılar.** Türk fəhlə teatrında oynanılan Cəfər Cabbarlının "Sevil", "Qayıdış", X. Nəzirli və S. Rüstəmin "Alov", A. Həmidin "Hind qızı", V. Kirşonun "Küləklər şəhəri" əsərlərinə musiqi bəstələmiş, bir neçə Azərbaycan xalq mahnılarını nota almışdır.

Kitabxana olaraq bəstəkarın yubiley günləri ilə bağlı keçirilən tədbirlərdə bu tamaşalara baxış keçirə bilərik. Bu həm də bəstəkarla yanaşı yazıçıların, ədiblərin oxuculara tanıdılmasına şərait yaradır.

**Filmə baxış.** Haqqında 1971-ci ildə "Həyat romansı" filmi, 2000-ci ildə "Asəf Zeynallı" filmi, "Musiqiyə həsr edilən ömür – Asəf Zeynallı" filmləri çəkilmişdir. Kitabxanada bu filmlərin nümayişini də keçirə bilərik. Tədbiri "Bir bəstəkarın həyat yolu" adı ilə təşkil edirik. Oxuculara, yaxın məktəblərə və bu kimi digər uşaq müəssisələrinə filmin nümayiş günü haqqında elan paylayırıq.

Onun musiqisinə bu günə qədər heç kəs biganə qala bilmir. Çünki bu musiqi xalq musiqisi qədər qəlblərə yaxındır. Təkcə "Ölkəm" romansı Asəf Zeynallının insanlar tərəfindən sevilməsi və daim xatırlanması üçün kifayət edər. Cəmi 23 il ömür sürməsinə baxmayaraq, o, Azərbaycan musiqi xəzinəsinə dəyərli incilər bəxş edə bilmişdir.

## Asəf Zeynallı uşaq bəstəkarı kimi

Asəf Zeynallı yaradıcılığının təbliği üçün kitabxanada onun bəstələdiyi uşaq musiqiləri əsasında "musiqi saatı" təşkil edə bilərik.

Məlumdur ki, uşaqlar üçün musiqi bəstələmək çətin və məsuliyyətli işdir. Çünki bəstəkar yaratdığı bu janrda uşağın zövqünü, musiqi təfəkkürünü duymalı, eləcə də ifaçılıq vərdişlərinin inkişaf etdirmək kimi əsas məqsədləri qarşısına qoymalıdır. Dünya şöhrətli bəstəkarlardan D. Şostakoviç, P. Çaykovski, R. Şuman və s. kimi bəstəkarlar uşaqlar üçün pedaqoji əhəmiyyətli gözəl əsərlər yaratmışlar. Azərbaycan musiqisində isə bu janra ilk dəfə müraciət edən A. Zeynallı, olmuşdur. Sonralar Q. Qarayev, F. Əmirov, S. Ələsgərov, Q. Hüseynli də gözəl uşaqlar üçün əsərlər yaratmışlar.

Yaradıcılıq yolunda fortepiano üçün yazdığı "Uşaq suitası ilə Azərbaycan uşaq musiqisinin əsasını qoymuş bəstəkar suitada uşaqların daxili aləmini, yəni tez-tez dəyişən əhvali-ruhiyyəsini, şıltaqlığını, eləcə də həyata münasibətini göstərmişdir. Odur ki, bəstəkar suitanın hər bir hissəsini uşaqlara yaxın, anlaşılan tərzdə əks etdirmişdir. İstedadlı bəstəkar Asəf Zeynallının musiqi irisi bu gün də öz əhəmiyyətini itirməmiş, ifaçıların repertuarında özünə möhkəm və həmişəlik yer tutmuşdur.

**Suitasına baxış.** Yaradıcılığında ən maraqlı əsərlərindən olan pyesləri – "*Kuklaların marşı", "Uşaq və buz", "Oyun", "Rəqs", "Qoyunlar" , "Mübahisə",* "Uşaq süitası" Azərbaycanda uşaq fortepiano miniatürünün gözəl nümunələri hesab edilir.

Uşaqlarla hər hansı bir teatr ocağında və ya kitabxanada bu suitaya baxış təşkil edə bilərik. Kitabxananın oxu zalında proyektor vasitəsilə musiqi əsərini nümayiş edə bilərik.

Suitada yer alan mahnıların musiqisi uşaqlar üçün çox anlaşıqlı olub, başadüşülən obrazlarla çox zəngindir və mahnıların hərəsi bir müəllifindir. Uşaqlara musiqi müəllifi ilə yanaşı söz müəlliflərini də tanıdırıq. Oxu zalında başlayan tədbirdə uşaqların təəssüratlarını, xoşlarına gəlib gəlmədiklərini

öyrənmək üçün, bəstəkarı tanıyıb tanımadıqlarını öyrənmək üçün sual-cavab keçirə bilərik.

1. Asəf Zeynallı kimdir?
   Asəf Zeynallı Azərbaycanın ilk uşaq bəstəkarıdır.

2. Bəstəkarın yazdığı "Uşaq suitası" neçə pyesdən ibarətdir?
   Asəf Zeynallının yazdığı "Uşaq suitası" altı pyesdən ibarətdir.

3. Suitaya daxil olan pyeslər hansılardır?
   "Kuklalar", "Uşaq və buz", "Rəqs", "Oyun", "Oyunlar", "Deyişmə".
4. Baxdığınız suitada "Uşaq və buz" əsəri hansı ədibimizin sözləridir?

5. Suita haqqında fikirləriniz?

6. Suitada hansı pyesi daha çox bəyəndiniz?

**Xatirə gecəsi.** Kitabxanada keçirilən yubilyarın yaradıcılığının təbliği üçün ən maraqlı tədbirlərdən biri onun xatirə gecəsidir. Lirik mahnıları, romansları ilə populyar Asəf Zeynallı haqqında hazırlanmış materialları, onun musiqiləri proyektorla nümayiş edilir. Tədbirə qonaqlar, musiqiçilər, onun yaradıcılığı ilə maraqlanan musiqişünaslar, oxucular dəvət edilir. Asəf Zeynallının portreti zalda nümayiş edilir. Tədbirdə daha çox vokal yaradıcılığı ilə populyarlıq qazanmış Asəf Zeynallının lirik mahnı və romanslarından istifadə edilir.

Daha çox vətənə sonsuz məhəbbəti olan bəstəkarın yaradıcılığına həsr edilən bu gecəni "Bəstəkarın əbədiyaşayan "Ölkəm" i adlandırırıq.

Bundan başqa Vətən haqqında onun "Çadra", "Ceyran", "Sual" və digər lirik romansları da vardır. Bəstəkarın musiqi əsərlərini romanslarını ifa etmək üçün tədbirə musiqi kollecinin tələbələrini - skripkaçalanlar, kanonçalanları dəvət edirik.

*Musiqi səslənir.*

Şiş ucları buludlarla döyüşən
Dağlarında buzları var ölkəmin!
Göllərində ördəkləri üzərlər,
Çöllərində maralları gəzərlər,
Güllərindən gəlinlər tac bəzərlər,
Ceyran gözlü qızları var ölkəmin!

**I aparıcı:** Əslində, təkcə adı çoxdan musiqi sənətimizin qızıl fonduna düşmüş "Ölkəm" romansı Asəf Zeynallının əbədi yaşaması və xalq tərəfindən sevilməsi üçün kifayətdir.

**II aparıcı:** Lakin o musiqi tarixinə sənətkarlıq baxımından "Ölkəm" dən heç də geridə qalmayan, onun kimi sevilən, ifaçıların dilindən düşməyən bundan başqa da gözəl romanslar, kamera musiqiləri bəxş etmişdir.

Musiqi səslənir.

**I aparıcı:** Çox qısa 23 il ömür sürən bəstəkar haqqında danışarkən ilk olaraq onu qeyd etmək istərdik ki, o, Azərbaycan Dövlət Konservatoriyasının yetirməsi professional təhsil almış ilk bəstəkarlarımızdandır. A.Zeynallı musiqisi öz səmimiliyi ilə adamı valeh edir, ona görə ki, bu musiqilər insanın daxili aləmini, onun fikir və duyğularını açıb göstərir. Xalq mahnı və rəqslərindən muğam köklərimizdən ustalıqla bəhrələndiyindən, bəstəkarın yaradıcılığının əsasını xəlqilik təşkil edir. Truba, violençel, fortepiano və bir çox musiqi alətlərinin həm də mahir ifaçısı olan bəstəkar ilk Azərbaycan romanslarının, fortepiano və skripka üçün pyeslərin də müəllifidir. Onun vokal və kamera instrumental əsərləri ölkəmizdə bu janrın inkişafı üçün mühüm rol oynamışdır.

Əsərlərinin böyük qismini təhsil illərində yazan bəstəkar bunlardan fortepiano üçün “Çahargah”, “Durna”, pyesləri, skripka və fortepiano üçün “Muğamsayağı”, xalq mahnısı əsasında iki violençel və fortepiano üçün “Qoyunlar” pyesini, xor və orkestr üçün “Şikəstə”ni fortepiano üçün “Uşaq suitası” nı, “İki fuqa”nı, qeyd etmək olar. Romans janrının əsasını qoyan bəstəkarın “Ölkəm”, “Sual”, “Sərhədçi”, “Seyran", "Fraqmentlər" adlı dahiyanə əsərləri illərdir dillər əzbəridir. Bəstəkar eyni zamanda səmimi, bacarıqlı müəllim idi. Sonralar onun yetirmələri Azərbaycan musiqisinin inkişafında böyük rol oynamışlar. O, görkəmli Azərbaycan bəstəkarlarının Qara Qarayevin, Cövdət Hacıyevin, Zakir Bağırovun, Tofiq Quliyevin xeyirxah, qayğıkeş müəllimi olmuşdur. Onların bir bəstəkar kimi yetişməyində xüsusi ilə savadlanmalarında Zeynallı saatlarla yorulmadan çalışmışdır. Ömrünü az, lakin dəyərli yaşayan bəstəkar öz möhürünü Azərbaycan musiqisində səsi tükənməyən akkordlarla tamamladı. Bəstəkarın xatirəsinə hörmət əlaməti olaraq onun layiqli adını şəhərimizdə bir çox küçələr və Azərbaycan Konservatoriyası nəznində fəaliyyət göstərən musiqi kolleci daşıyır. Dəfələrlə onun yubiley konsertləri, adını daşıyan müsabiqələr, konkurslar və festivallar keçirilmişdir. Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, pedaqoji elmlər namizədi, professor Nazim Kazımovun təşəbbüsü ilə, Asəf Zeynallının 110 illiyi münasibətilə bəstəkarın həyat yolunu, yaradıcılığını əks etdirən kitabın dərci ona Dövlət tərəfindən hədsiz qayğını göstərir. Bizlər fəxr etməliyik ki, bu cür dahi sənətkarların nəfəs aldığı ocaqlarda böyüyür, təhsil alır, savadlanırıq.

## Ədəbiyyat siyahısı

Asəf Zeynallı // **Azərbaycan musiqi dünyası** = Azerbaijan music world = Luminaries of Azerbaijan arts : Azərbaycan incəsənətinin korifeyləri. - Bakı : Nurlar, 2001. - 464 s. : foto, rəngli foto - Azərbaycan və ingilis dillərində.- S.11.

**Dövri mətbuatda**

**Abbaslı T.** Asəf Zeynallı : bir azman, ən qocaman roman-romansın müəllifi - 23 yaşlı nakam cavan // Mədəniyyət. - 2014. - 24 oktyabr. - № 81. - S. 13.

**Abbaslı T.** Yarımçıq ömür, bütöv sənət... : Azərbaycan musiqisinə ilk... ən qocaman "roman"- romans bəxş etmiş nakam gənc - Asəf Zeynallı // Mədəniyyət. - 2017. - 25 oktyabr. - № 83. - S. 13.

**Alışova N.** Azərbaycan romansının banisi : Asəf Zeynallı-100 // Mədəni-maarif. - 2009. - № 8/9. - S. 60.

**Asəf Zeynallı** // Savalan. - 2008. - 8-10 aprel. - S. 2.

**Asəf Zeynallı** // Savalan. - 2012. - 3-5 aprel. - № 21. - S. 2.

**Asəf Zeynallı** : görkəmli şəxsiyyətlər // Savalan. - 2015. - 20-22 oktyabr. - № 70. - S. 3.

**Dünyamalıoğlu F.** Musiqimizin ilk fədailərindən biri : Asəf Zeynallı haqqında // Mədəniyyət. - 2009. - 8 aprel. - S. 4.

**Əhmədalılar T.** Əbədi gənc bəstəkar // Mədəniyyət. - 2012. - 31 oktyabr. - № 78. - S. 15.

**Əhmədova M.** Həmişəyaşar bəstəkar : Asəf Zeynallı - 100 // Qobustan. - 2009. - № 2. - S. 15-17.

**Fərəcova Z.** Bitməmiş simfoniya : [Musiqi xadimi Asəf Zeynallı haqqında] // Azərbaycan. - 2019. - 6 aprel. - № 73. - S. 8.

**Günəş R.** 23 yaşlı dahi : görkəmli bəstəkar Asəf Zeynallı barədə qardaşı qızı Elmira Zeynallının təəssüratları // Azərbaycan Müəllimi. - 2015. - 4 aprel. - № 11. - S. 11.

**Xəlilzadə F.** Əsrə qovuşan 23 il : Asəf Zeynallı - 100 // Azərbaycan. - 2009. - 4 aprel. - S. 7.

**Kazımov N.** Həmişəcavan bəstəkar : Asəf Zeynallı - 100 // Azərbaycan. - 2009. - 5 aprel. - S. 7.

**Kazımov N.** İlk professional təhsilli Azərbaycan bəstəkarı : Asəf Zeynallı - 100 // Azərbaycan müəllimi. - 2009. - 3 aprel. - S. 5.

**Qədir C.** Son əsərini xəstəxana divarına yazan dahi : Asəf Zeynallı // 525-ci qəzet. - 2018. - 27 oktyabr. - № 189. - S. 16.

**Qulamova J.** Yarımçıq qalmış ömür : Asəf Zeynallı - 100 // Mədəniyyət. - 2009. - 3 aprel. - S. 5.

**Musiqiyə həsr edilən** ömür : görkəmli bəstəkar Asəf Zeynallının anadan olmasından 105 il ötür // Xəzər. - 2014. - № 328. - S. 26.

**Salmanov R.** İllərin sınağından şərəflə çıxmış sənət : Asəf Zeynallı - 100 // Xalq qəzeti. - 2009. - 17 may. - S. 4.

**Səma S.** Ömrün bitməyən çərəyi // Mədəniyyət. - 2009. - 3 aprel. - S. 5.

**Şəfəq R.** Qısa və mənalı ömür : Asəf Zeynallı // Savalan. - 2012. - 19 - 22 oktyabr. - № 75. - S. 2.

# Musiqimizin ilk fədailərindən biri – Asəf Zeynallı

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 36
Çapa imzalanmışdır: 11.09.2019
Tirajı:100
Pulsuz